# MÜSTƏQIL AUDITORUN HESABATI

*"Kənan İnşaat və Ticarət"-nin Rəhbərliyinə*

**Şərti müsbət Rəy**

"Kənan İnşaat və Ticarət"MMC (VÖEN:9900070881) üzrə 01.01.2018-ci il tarixdən 31.12.2018-ci il tarixədək olan hesabat ili ərzində aparılmış maliyyə - təsərrüfat əməliyyatlarının düzgünlüyünün, aparılmış mühasibat uçotunun qanunililiyinin və onun nəticələrinə dair AR Milli Standartlara uyğun olaraq tərtib olunmuş "Mənfəət Vergisinin Bəyənnaməsi"nin və onun Əlavələrinin əsaslılığının qiymətləndirilməsi və bunların bazasında konsolidə edilərək (birləşdirilərək) hazırlanmış "Maliyyə vəziyyəti haqqında", "Mənfəət və ya zərər və digər məcmu gəlir haqqında", "Kapitalda dəyişikliklər haqqında" və "Pul vəsaitlərinin hərəkəti haqqında" Hesabatların, o cümlədən, Uçot siyasəti və İzahlı qeydlərdən ibarət Maliyyə Hesabatlarının Beynəlxalq Standartlara uyğunluğunu təsdiq etmək məqsədi ilə tərəfimizdən, həqiqətən də, həmin audit Beynəlxalq Audit Standartlarının tələblərinə uyğun olaraq keçirildi.

Hesab edirik ki, "Şərti müsbət Rəy üçün əsaslar" bölməsində təsvir edilmiş məsələlərin təsirləri istisna olmaqla, Auditə təqdim edilmiş yuxarıda qeyd olunan Maliyyə Hesabatlarında göstərilən məlumatlar, "Kənan İnşaat və Ticarət" MMC-nin həmin hesabat ili ərzində mövcud olmuş maliyyə vəziyyətini və eyni zamanda, 31 dekabr 2018-ci il tarixə yaranmış maliyyə nəticələrini (müvafiq hesablar üzrə qalıqları) Maliyyə Hesabatlarının Beynəlxalq Standartların tələbləri baxımından düzgün əks etdirir və bu məqsədlə aparılmış əməliyyatlar, onların xarakteri, vacibliyi və mahiyyəti barədə ədalətli-real təsəvvür yaradır.

**Şərti müsbət Rəy üçün əsaslar;**

Hesab edirik ki, həmin Rəyin əsaslandırılması və düzgün formalaşdırılması məqsədi ilə Auditorun "Audit Planı", "Audit Proqramı" və "Audit Strategiyası" adlı İş sənədlərində göstərilənlər üzrə yerinə yetirdiyimiz müvafiq Audit prosedurları və toplanılmış müvafiq Auditor sübutları yetərlidir, kifayət qədər münasibdir və həmin hesabat ilinin faktiki maliyyə vəziyyətinə və həmin ilin yekununa dair qeyd olunan göstəricilərə tam uyğundur.

Rəyin əsası kimi qəbul ediləsi digər bir məsələ isə Beynəlxalq Audit Standartlarının (BAS) tələblərinə uyğun olaraq apardığımız həmin Audit üzrə hüquqi baxımdan daşımalı olduğumuz məsuliyyətimizdir. Bu barədə isə həmin Hesabatın "Auditorun məsuliyyəti" bölməsində ətraflı bəhs edilmişdir.

Həmin Audit, Auditorların Peşə Etikası Məcəlləsinin, eyni zamanda, Beynəlxalq Audit Standartlarının, Milli Qanunvericilik və Normativ - Hüquqi Aktların tələblərinə uyğun olaraq icra edilmişdir.

S.AUDITOR-1993
VÖEN:
2000035121

**Əsas Audit məsələləri üzrə qeydlər;**

"Şərti müsbət Rəy üçün əsaslar" bölməsində göstərilən şərtlərin və ya təsirlərin tərkib hissəsi olaraq aşağıdakı bir sıra məsələlərin həll edilməli olduğunu müəyyən etdik:

— Hesabat ilinin yekununa dair müəyyən olunmuş və Uçot – Hesabat Sənədlərinə daxil edilmiş Cəmiyyətin Nizamnamə kapitalının müvafiq icra hakimiyyəti orqanında qeydiyyatdan keçirilməsini;

— Mühasibat uçotunun müvafiq hesab planları üzrə ilin sonuna göstərilən və eyni zamanda, Hesabata daxil edilmiş rəqəmlərin və ya qalıqların müvafiq qaydada inventarizasiya edilməli olduğunu;

— Aparılmalı olan İnventarizasiya əməliyyatlarının nəticələri barədə tərtib olunacaq müvafiq sənədlərdə göstəriləcək real qalıqlara uyğun olaraq hesabat rəqəmlərinin dəqiqləşdirilməli olduğunu;

— Hal – hazırkı Maliyyə Hesabatlarının əsaslılığına, düzgünlüyünə və obyektivliyinə birbaşa təsiri olmayan digər məslələrin də (Cəmiyyətin yerləşdiyi və Cəmiyyətə məxsus olan ofis binasına dair Çıxarışın yenilənməsi, bəzi silgi və nizamlama Aktlarının və ya Arayışlarının tərtib olunması və s.) həll edilməli olduğunu.

**Maliyyə - təsərrüfat əməliyyatlarının və onların nəticələrinə dair Uçot-Hesabat işinin təşkilində və ya aparılmasında Rəhbərliyin məsuliyyəti;**

Yol verilmiş dələduzluq və ya buraxılmış səhvlərin nəticəsindən asılı olmayaraq əhəmiyyətli **təhriflərin olmamasına,** daxili nəzarət sisteminin **düzgün təşkilinə, tətbiqinə, davam etdirilməsinə,** müvafiq Uçot siyasətinin **düzgün seçilməsinə,** onun və Mühasibat uçotunun hesablar planının düzgün **tətbiqinə,** icra edilmiş əməliyyatların xarakterinin faktiki vəziyyətə münasib olması şərti ilə qurulmuş ilkin, əsas və baş uçot işinin müvafiq Standartların tələblərinə **uyğun qurulmasına və aparılmasına,** eyni zamanda, Cəmiyyətin rentabellik səviyyəsinin qorunub **saxlanılmasına,** Müəssisənin əsas fəaliyyəti ilə bağlı olaraq çəkilmiş xərclərin (maya dəyərinin) **obyektivliyinə**, bağlanılmış Müqavilələrin iqtisadi baxımdan **sərfəliliyinə,** digər bütün müvafiq məsələlərin düzgün həllinə, Cəmiyyətin əsas fəaliyyəti ilə bağlı olan digər müvafiq sahələrin düzgün idarə olunmasına və eyni zamanda, yekun olaraq, Müəssisənin **2018-ci il ərzində** aparılmış maliyyə - təsərrüfat fəaliyyəti barədə yerli və beynəlxalq Qanunvericiliyin şərtlərinə uyğun olaraq tərtib olunmuş Hesabatların **düzgün hazırlanmasına** və Auditə **ədalətli təqdimatına** görə Cəmiyyətin Rəhbərliyi məsuliyyət daşıyır.

**Auditin müvafiq Standartların tələbləri baxımından keyfiyyətlə aparılması üçün Auditorun məsuliyyəti;**

Bu Auditlə, müvafiq Qanunvericilik və Normativ – Hüquqi Aktlarla müəyyən olunmuş **Auditorun - Mənim vəzifəmlə bağlı olan məsuliyyətim** Müəssisənin Rəhbərliyi tərəfindən tərtib və təsdiq olunaraq Auditə təqdim edilmiş və həmin Müəssisə

üzrə aparılmış bütün növ əməliyyatların yekununa - 01.01.2018-ci il tarixə olan qalıq rəqəmlərini əks etdirən Hesabatların və onların Əlavələrinin **düzgünlüyünün təsdiq edilməsindən**, həmin Auditin bu sahəyə dair Normativ – Hüquqi Aktların və digər müvafiq Audit Standartlarının tələbləri baxımından **keyfiyyətlə aparılmasından,** Auditorun Peşə Etikası Məcəlləsinin tələblərinə **əməl edilməsindən,** Auditə dair müvafiq prosedurların **tam yerinə yetirilməsindən,** lazımi Auditor sübutlarının **kifayət qədər toplanılmasından,** Auditin vaxtında, tələb olunan keyfiyyətlə **başa çatdırılmasından**, eyni zamanda, keçirilmiş Auditin nəticələrinə dair **müvafiq Auditor Rəyinin düzgün formalaşdırılmasından** və ya bu barədə **Müstəqil Auditor Hesabatının düzgün tərtib olunmasından ibarətdir**.

Hesab edirəm ki, müvafiq qanunla müəyyən olunmuş səlahiyyətim və məsuliyyətim daxilində, Auditor olaraq, Müqavilə üzrə götürdüyüm öhdəliyin tam, hərtərəfli və eyni zamanda, yuxarıda qeyd edilənlərin də düzgün yerinə yetirilməsi üçün öz vəzifəmi qanuni tələblərə uyğun formada və qaydada icra etmişəm.

**Azərbaycan Respublikası Auditorlar Palatasının**
**və ABŞ Beynəlxalq daxili Auditorlar İnstitutunun üzvü,**
**Müstəqil Auditor:** **A.A.Əliyev**

Azərbaycan, Bakı şəhəri, Xətai rayonu,
Xudu Məmmədov 9/7,

10.05.2019